# Torpaq qorunanda Vətən olurmuş

**Qazağın İnce deresi Ermenistanla serhed zonada yerleşir. Milli ordunun esgerleri serhedlerimizin keşiyinde ayıq-sayıq dayanırlar.**

Bizim Qaymaqlı kənd Mədəniyyət evinin işçiləri bayram və tarixi günlərdə əsgərləri unutmur, onlarla görüşə gedirlər.

Onlar bu gün də öz ənənələrinə sadiq qalaraq sərhəd bölgəsində olmuş, öz hədiyyələri və musiqi töhvələri ilə əsgərlərimizi sevindirmişlər.

Mən, Mədəniyyət işçiləri adından əsgərlərimizi "Novruz" bayramı münasibətilə ürəkdən təbrik etdim, onlarda xoş ovqat, gözəl əhvali-ruhiyyə yaratdıq.

Bizim mədəniyyət evinin işçiləri hərbiçilər üçün siqaret, kibrit, lezva, sabun, ayaqqabı mazı və s. alıb aparmışdılar. Biz eyni zamanda "Novruz" bayramı münasibətilə əsgərlərə səmənilərlə bəzədilmiş xonçalar, şirin-çörəklər, şirniyyat sovqatı da hədiyyə etdik.

Orada bölük komandiri Rəşad Süleymanovla, taqım komandiri Ramin Tağıyevlə, onun müavini Azər Bağırovla söhbət əsnasında öyrəndik ki, əsgərlər arasında öz Vətənini, xalqını canından artıq sevən, torpaqlarımızın keşiyində hünərlə, qeyrətlə dayanan gənclər çoxdur. Onlardan Ümid Kərimov, Sahil Alıyev, Daşqın Həsənov, Orxan Kərimov, Nurlan Yusifov və başqaları xidməti borclarını nümunəvi yerinə yetirirlər. Bu cümlələri yazdıqca bir vaxt məşhur olan "Əsgər marşı"nın sözləri yadıma düşdü;

*Vətən məni yetişdirib, bu ellərə yolladı,*
*Bu torpağa qurban deyib, allaha ismarladı.*
*Boş oturma, çalış dedi, xidmət eylə Vətənə,*
*Südüm sənə halal olmaz, sən baş əysən düşmənə.*

2 yaşı olanda Vətənindən qaşqın düşmüş laçınlı balası Əlixan Əliyev isə, bu bayatını dedi;

*Mən aşıq gül biçərəm,*
*Gülü güldən seçərəm,*
*Vətənimin yolunda,*
*Gözlərimdən keçərəm.*

Qaymaqlı kənd Mədəniyyət evinin işçilərindən Zinyət Bəşirovanın, Xəzanə Mürüdovanın, Mələk Nəsibovanın əsgərlərlə səmimi söhbətləri daha xoş təsir bağışladı, onları Böyük Qələbəyə ruhlandırdı.

Sürücümüz, Milli ordunun keçmiş əsgəri Novruz Eyyubov da öz növbəsində əsgərlərə xeyir-duasını, dəyərli məsləhətlərini verdi.

Əsgərlərimizin yanına gedib - gəlməyimizi nəqliyyat sarıdan Qaymaqlı kənd bələdiyyəsinin sədri Alı Hüseynov təmin etdi. Bu qayğı və diqqətə görə mədəniyyət evinin işçiləri adından Bələdiyyənin sədrinə öz minnətdarlığımızı bildiririk.

Əsgər və zabitlər sovqat və maraqlı görüş üçün biz mədəniyyət işçilərinə öz təşəkkürlərini bildirdilər.

Bölük komandiri, baş leytenant Rəşad Süleymanovun dediklərindən:

- Vətən bizə oğul deyib, öz mühafizəsini bizə etibar etmişdir. Biz son damla qanımızadək bu etibara layiq olacaq, bir qarış torpağımızın da erməni torpağına çevrilməsinə yol verməyəcəyik. Müharibə tezliklə ədalətin, haqqın qələbəsi ilə başa çatacaqdır. Təki Siz deyən olsun, komandir! Amin Allah! O günü hamımız intizarla gözləyirik.

Bəli, Vətənimizi, torpağımızı qoruyan, sərhədlərimizin keşiyini çəkən Milli Ordumuzun əsgərlərinə qayğı göstərmək, onlara mənəvi dayaq olmaq, maddi cəhətdən kömək etmək hamımızın borcudur. Bundan sonra da öz ənənəmizə sadiq qalacağıq.

Onlardan bir arzu, bir istəklə ayrıldıq. Tezliklə Qarabağın azadlıq günündə, Böyük bayram günündə görüşərik!

**● K.KAZIMOV,**
***Qaymaqlı kənd mədəniyyət evinin direktoru***